**Mirnihad Abdullazadə Nazim oğlu**
Bakı Avrasiya Universiteti

# MÜASIR BEYNƏLXALQ MÜNASIBƏTLƏRDƏ ENERJI FAKTORU

***Açar sözlər:*** *Enerji resursları, Beynəlxalq əlaqələr, Reserv ehtiyatları, Enerji istehlakı, Beynəlxalq ticarət, Enerji tələbatı, Təbii yanacaq*
***Key words:*** *Energy resources, International relations, Reservoirs, Energy consumption, International trade, Energy demand, Natural fuel*
***Ключевые слова:*** *Энергетические ресурсы, Международные отношения, Водоемы, потребление энергии, Международная торговля, спрос на энергию, природное топливо*

Hər bir ölkə üçün təbii ehtiyatlar və enerji resursları böyük əhəmiyyətə malikdir. Bu qaynaqlar iqtisadi istehsal üçün lazımi vəsaiti təmin edir və maliyyənin gəlir mənbəyi kimi çıxış edir. Ancaq bu qaynaqlar iqtisadi problemlərlə bərabər eləcə də siyasi, təhlükəsizlik və ekoloji məsələlərə təsir edə bilir. Bundan əlavə, bu təsirin əhatəsi yalnız daxili problemlərlə məhdudlaşmır, həm də beynəlxalq münasibətlərə təsir edir. Bu məsələyə daha ətraflı baxsaq, təbii qaynaqların beynəlxalq əlaqələrin gedişatına hələ uzun müddət yön verəcəyi daha aydın görünür.

## Müasir beynəlxalq münasibətlərdə enerji faktoru

Bu mövzu ilə bağlı ədəbiyyatı araşdırdıqdan sonra, resurs əsaslı qarşıdurmaların iki əsas səbəbi olduğunu söyləmək mümkündür. Hər iki səbəb təbii ehtiyatların qeyri-bərabər paylanmasına əsaslanır. Bunun səbəblərindən birincisi resursların çatışmazlığı ilə bağlıdır, digərləri isə resursların bolluğuna aiddir. Tomas Malthus uzun müddət əvvəl resursların çatışmazlığı ilə münaqişənin əlaqəsini izah etmişdi. Maltusun sözlərinə görə, əhali sürətlə artmaqda davam edir və həyat üçün zəruri resurslar yalnız ədədi silsilə olaraq artır. Buna görə Maltus qaçılmaz olaraq bir səfalət və aclıq dövrünün müşahidə ediləcəyini və bununla əlaqədar olaraq müharibələr olacağı fərziyyəsini irəli sürmüşdür (1). Bu fərziyyə, əsasən, insanların və millətlərin həyatlarını davam etdirmək üçün lazım olan resursları əldə etmək üçün bir-birləri ilə qarşıdurmada olacağını bildirir. Bundan əlavə, resurslar az olduqda, münaqişələr daha ciddi və şiddətli olacaqdır və bu münaqişələr nəticədə müharibəyə gətirib çıxara bilər. Bu yanaşma həmçinin Thomas Homer-Dixon, Simon Dalby və bəzi digər alimlər tərəfindən dəstəklənir (2).

Le Billon, qarşıdurmaların qaynaqların çatışmazlığına istiqamətli yanaşmasını tənqid edir və təbii qaynaqlar üçün zəngin ölkələrin zəif ölkələrdən daha çox qarşıdurmaya meyilli olduğunu vurğulayır (4). Bu cür münaqişələrin tetikləyici səbəbləri əsasən hərislik və bu vəsaitlərin beynəlxalq və ya qeyri-qanuni bazarlara satılmasından əldə edilən yüksək gəlir səviyyəsidir. Başqa sözlə, bu resurslara həyati (dövlətin düzgün işləməsi üçün daxili tələbatın ödənilməsi) ehtiyac münaqişənin əsas səbəbi deyil. Həm Le Billon, həm də Ross dövlətdaxili qarşıdurmalar və vətəndaş müharibələrinə daha çox diqqət göstərmişdir. Hər ikisi də təbii sərvətlərin silahlı münaqişəni motivasiya etməklə yanaşı, belə münaqişələri maliyyələşdirməsi və bununla da münaqişələrin müddətinə təsir göstərə bilməsini iddia edir (5). Əlavə olaraq, Le Billon, xarici müdaxilələrin və ya xarici yardımın dövlət daxilində qarşıdurmalara təsir göstərdiyini söyləyir. Lakin soyuq müharibə dövründəki qarşıdurmalarla müqayisədə, müasir silahlı qarşıdurmalarda özəl sərmayə yatırımının əhəmiyyətinin xarici yardımın əhəmiyyətindən daha böyük olduğunu vurğulayır (5).

Təbii resurs ilə beynəlxalq ticarət avtomatik olaraq bu ticarəti edən ölkələr arasında əlaqələr yaradır. Bir çox hallarda, bu münasibətlər yalnız iqtisadi səviyyədə qalır, bəzən də siyasi əlaqələrə təsir göstərir. Bu vəziyyət xüsusilə resurs ticarətinin iqtisadi aspektinin yüksək olduğu hallarda baş verir, çünki belə bir vəziyyətdə idxalçı ölkənin bütün iqtisadiyyatı təsirlənə bilər. Buna görə də, ticarətdə hər hansı bir pozulmanın qarşısını almaq və beləliklə resursun strateji girişini təmin etmək üçün bəzi hallarda idxal və ixrac ölkələri arasında güclü siyasi əlaqələr qurula bilər və hətda Westingin dediyi kimi, ittifaqlar qurula bilər. İran və onun ən böyük neft və qaz idxalçısı olan Çin

arasındakı əlaqələr buna yaxşı bir nümunədir. Gal Luft belə bir ittifaqda "diplomatik dəstək, hərbi yardım və insan hüquqlarının pozulması kimi güzəştlər" verilə biləcəyini vurğulayır (7). Bu iki ölkə enerji razılaşmaları ilə bir-birinə bağlıdır və bu, İrana güclü bir tərəfdaş təmin edir. Çünki, Çin BMT Təhlükəsizlik Şurasının daimi üzvüdür və bu səbəbdən İrana qarşı hər hansı sanksiyaya veto qoymağa qadirdir.

Bir təbii ehtiyatın idxalının iqtisadi əhəmiyyəti ümumiyyətlə iki faktorla müəyyən edilir: (1) milli iqtisadiyyat üçün idxal mənbəyinin strateji əhəmiyyəti; və (2) bu mənbəni başqa ölkələrdən gətirmək üçün alternativlərin mövcudluğu. İxracın mənbəyinin strateji əhəmiyyəti bir iqtisadiyyat üçün vacib olub-olmaması ilə müəyyənləşdirilə bilər. Məsələn, neft və su kimi qaynaqlar bütün ölkələr üçün vacibdir və buna görə də onların strateji əhəmiyyəti çox yüksəkdir. Digər tərəfdən, zərgərlik üçün istifadə edilən almaz və ya qiymətli metalların idxalı iqtisadiyyatın və dövlətin düzgün işləməsi üçün zəruri deyil və buna görə də onun strateji əhəmiyyəti olduqca aşağıdır.

Digər ölkələrdən bir resurs idxalının rahatlığı bazarda bu resursların xalis ixracatçılarının sayından asılıdır. Bu say adətən ya resursun dünya miqyasında geniş yayılmış olması ya da bir neçə ölkədə və ya regionda cəmləşməyindən asılıdır.

**Nəticə**

Enerji resursları qlobal iqtisadiyyatda mühüm rol oynayır və bütün yüksək sənaye cəmiyyətləri üçün vacibdir. Bundan əlavə, enerji resurslarının qlobal bölüşdürülməsi (xüsusilə də neft və təbii qaz) çox qeyri-bərabərdir. Ölkələrin bir çoxu öz enerji ehtiyaclarını öz enerji mənbələrindən təmin edə bilmirlər və buna görə də bu resursların idxal olunması lazım gəlir. Buna görə enerji ehtiyatları həm idxal asılılığına və bununla əlaqədar təhlükəsizlik təhdidlərinə həm də güclü siyasi əlaqələrə və ya ittifaqlara səbəb olmaq üçün yüksək potensiala malikdir.

Enerji resursları bu tədqiqatın əsas meyarıdır. Daha əvvəl də qeyd edildiyi kimi, bu resurslar beynəlxalq əlaqələrin iqtisadi, siyasi və təhlükəsizlik ölçülərinə təsir göstərə bilər. Ancaq bir çox hallarda bu ölçülər bir-birinə bağlıdır.

**Ədəbiyyat:**

1. Thomas Malthus, An Essay on Principle of Population, London, 1798
2. Thomas Homer-Dixon ve Simon Dalby'dan tərcümə edən Hakan Korhan, "Enerji Təhlükəsizliyi və Türkiyə," Doktorluq Dissertasiyası, İstanbul Üniversitesi, Sosyal Elmlər İnstitutu, İstanbul, 2010.
3. Klare, Michael T.: Resource Wars: The New Landscape of Global Conflct, New York, Owl Books, 2001.
4. Le Billon, "The Political Ecology of War".
5. Le Billon, Philippe: Fuelling war: Natural Resources and Armed Conflicts, New York, Oxford University Press, 2001.
6. Ross, "Natural Resources and Civil War,".
7. Gal Luft, "Dependence on Middle East Energy and its Impact on Global Security," Institute for the Analysis of Global Security. http://www.iags.org/luft_dependence_on_middle_east_energy.pdf, 4 Avqust 2012.

**Energy factor in contemporary international relations**

**Summary**

The article analyzes the potential of natural resources for the formation of international relations. At the same time, conflicts , political tensions and in extreme situations, wars between states are revised as a result of the deficits and abundance of natural resources. The external intervention to resource-related wars in the state or the aid and its impact on international relations has been investigated. Also, the impact of international trade with resources on international relations, in most cases, not only at the economic level, but also on the political and security level impact of trade is one of the research topics. The results related to international relations of the trade

with resources between export and import countries have been highlighted. On the other hand, the results of safety for countries with import dependence have been investigated.

**Энергетический фактор в современных международных отношениях**
**Резюме**

В статье анализируется потенциал природных ресурсов для формирования международных отношений. В то же время дефицит и изобилие природных ресурсов были устранены в результате конфликтов между государствами, политической напряженности и войн в чрезвычайных ситуациях. Было исследовано внешнее вмешательство в связанные с государством войны за ресурсы или помощь и ее влияние на международные отношения. Кроме того, влияние международной торговли ресурсами на международные отношения во многих случаях является одной из тем исследований, которые влияют на торговлю не только на экономическом уровне, но также на политическом уровне и уровне безопасности. Подведены итоги торговых отношений между странами экспорта и импорта. С другой стороны, результаты безопасности импорта зависимости были исследованы.

**Rəyçi: s.f.d. A.M. Əliyeva**